# Azərbaycanın sədrliyi ilə AQEM-in Xüsusi İşçi Qrupu və Yüksək Vəzifəli Şəxslər Komitəsinin iclasları olub



Dekabrın 15 və 17-də Azərbaycanın sədrliyi ilə Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) Xüsusi İşçi Qrupu və Yüksək Vəzifəli Şəxslər Komitəsinin onlayn iclasları keçirilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, iclaslarda AQEM-ə üzv dövlətlər müşavirə və onun məşvərətçi orqanları çərçivəsində əməkdaşlıq və qarşılıqlı fəaliyyətin əsas istiqamətlərini, etimad quruculuğu tədbirlərinə dair plan və müvafiq konsepsiyaları, eləcə də 2026-cı il üçün nəzərdə tutulan əlaqədar tədbirləri müzakirə ediblər. Üzv dövlətlər həmçinin AQEM-in institusional inkişafı, o cümlədən 6-cı AQEM Sammitinin qərarına uyğun olaraq, müşavirənin beynəlxalq təşkilata çevrilməsi istiqamətində davam edən transformasiya prosesi barədə fikir mübadiləsi aparaq, bu istiqamətdə sədrliyin fəaliyyətinə dəstəklərini ifadə ediblər.

Yüksək Vəzifəli Şəxslər Komitəsinin iclası zamanı baş katib Azərbaycanın sədrliyi dövründə cari il ərzində AQEM-in fəaliyyəti barədə illik hesabatı üzv dövlətlərə təqdim edib. Komitədə AQEM-in Etimad Quruculuğu Tədbirlərinin İcra Planına və 2026-cı il üçün AQEM Katibliyinin büdcəsinə dair qərarlar, eləcə də digər prosedur qərarlar nəzərdən keçirilərək qəbul olunub.

Azərbaycan. - 2025.- 19 dekabr (№267).- S.5.